VII BÖLMƏ: İCMAL MATERİALLARI

# AQRAR-ƏRZAQ BAZARININ İNKİŞAFININ SOSİAL-İQTİSADİ ƏHƏMİYYƏTİ

DOİ: https://doi.org/10.71447/2413-7235-2025-1-56

**Xəyyam N. Cavadzadə**
*Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı*
*E—mail: xayyam1984@mail.ru*
***ORCID:** 0009-0001-0150-7116*

***Xülasə***
Məqalədə aqrar-ərzaq bazarının inkişafının sosial-iqtisadi əhəmiyyəti, onun ərzaq təhlükəsizliyi, regional inkişaf, məşğulluq və sosial sabitliklə qarşılıqlı əlaqəsi elmi-nəzəri baxımdan təhlil olunur. Araşdırmada göstərilir ki, aqrar sahədə baş verən struktur dəyişiklikləri və dövlətin tənzimləyici siyasəti bazarın dayanıqlılığının təmin edilməsində əsas rol oynayır. Müəllif tərəfindən aparılan təhlillər nəticəsində müəyyən olunur ki, Azərbaycanın aqrar-ərzaq bazarında institusional və struktur məhdudiyyətlər hələ də qalmaqdadır: aqrar kooperativlərin zəif inkişafı, emal sənayesinin qeyri-bərabər yerləşməsi, logistika infrastrukturunun natamamlığı və dövlət dəstəyi mexanizmlərinin ünvanlılıq problemləri səmərəliliyi məhdudlaşdırır. Beynəlxalq təcrübənin müqayisəli təhlili göstərir ki, inkişaf etmiş ölkələrdə aqrar bazarların rəqabətqabiliyyətliliyi kooperativ modellərin gücü, innovativ emal texnologiyaları, rəqəmsal idarəetmə sistemləri və dövlət-özəl tərəfdaşlığının institusional əsasları ilə təmin olunur. Məqalədə qeyd olunur ki, Azərbaycanın aqrar-ərzaq bazarının davamlı inkişafı üçün istehsal-emal-logistika zəncirinin inteqrasiyası, rəqəmsallaşma proseslərinin genişləndirilməsi, yerli brendlərin təşviqi və ixrac yönümlü istehsalın stimullaşdırılması zəruridir. Bununla yanaşı, bazar iştirakçılarının bilik və bacarıqlarının artırılması, eləcə də müasir marketinq və ticarət strategiyalarının tətbiqi rəqabət qabiliyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Dövlət tərəfindən subsidiyalaşdırma və investisiya təşviqlərinin hədəflənmiş və şəffaf şəkildə həyata keçirilməsi səmərəliliyi artırır. Regional bazarların inkişafı üçün yerli məhsul istehsalının təşviqi və logistika infrastrukturunun təkmilləşdirilməsi strateji əhəmiyyət daşıyır. Eyni zamanda, aqrar elmi-tədqiqat institutlarının və innovasiya mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi texnologiya transferi və məhsuldarlığın yüksəldilməsinə xidmət edir. Nəticə olaraq vurğulanır ki, aqrar-ərzaq bazarının modernləşdirilməsi yalnız iqtisadi səmərəliliyi deyil, həm də sosial rifahı, ərzaq təhlükəsizliyini və regional balanslı inkişafı təmin edən strateji istiqamətdir. Beləliklə, aqrar-ərzaq bazarının kompleks və davamlı inkişafı həm iqtisadi, həm də sosial göstəricilərin artmasına birbaşa töhfə verir.
***Açar sözlər:*** *Aqrar-ərzaq bazarı, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, dövlət siyasətk, sosial-iqtisadi inkişaf, logistika və emal, beynəlxalq təcrübə, kooperativ model, rəqabət qabiliyyəti, innovativ mexanizmlər*

# KSOCIO-ECONOMIC SIGNIFICANCE OF THE DEVELOPMENT OF THE AGRI-FOOD MARKET

**Xəyyam N. Cavadzadə**
*Doctoral student of Azerbaijan State Agrarian University*
*E-mail: xayyam1984@mail.ru*
***ORCİD:** 0009-0001-0150-7116*

**Abstract**
The article analyzes the socio-economic significance of the development of the agri-food market, its interrelation with food security, regional development, employment, and social stability from a scientific and theoretical perspective. The study shows that structural changes in the agricultural sector and the state's regulatory policies play a key role in ensuring market resilience. The author's analysis identifies that institutional and structural limitations in Azerbaijan's agri-food market persist: weak development of agricultural cooperatives, uneven distribution of the processing industry, incomplete logistics infrastructure, and targeting issues in state support mechanisms limit efficiency. Comparative analysis of international experience shows that the competitiveness of agricultural markets in developed countries is ensured by strong cooperative models, innovative processing technologies, digital management systems, and institutional foundations of public-private partnerships. The article emphasizes that for sustainable development of Azerbaijan's agri-food market, integration of the production–processing–logistics chain, expansion of digitalization processes, promotion of local brands, and stimulation of export-oriented production are necessary. Furthermore, enhancing the knowledge and skills of market participants, along with the application of modern marketing and trade strategies, plays a significant role in increasing competitiveness. Targeted and transparent implementation of subsidies and investment incentives by the state improves efficiency. Regional market development requires promoting local production and improving logistics infrastructure. At the same time, strengthening the activities of agricultural research institutes and innovation centers facilitates technology transfer and productivity enhancement. In conclusion, modernization of the agri-food market is a strategic direction that ensures not only economic efficiency but also social welfare, food security, and balanced regional development. Thus, the comprehensive and sustainable development of the agri-food market directly contributes to the growth of both economic and social indicators.
***Keywords:*** *Agri-food market, food security, agriculture, state policy, socio-economic development, logistics and processing, international experience, cooperative model, competitiveness, innovative mechanisms.*

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ РАЗВИТИЯ АГРОПРОДОВОЛЬСТВЕННОГО РЫНКА

**Хайям Н. Джавадзаде**
*Докторант Азербайджанского Государственного Аграрного Университета*
*E-mail: xayyam1984@mail.ru*
***ORCİD:*** *0009-0001-0150-7116*

**Аннотация**
В статье анализируется социально-экономическое значение развития агропродовольственного рынка, его взаимосвязь с продовольственной безопасностью, региональным развитием, занятостью и социальной стабильностью с научно-теоретической точки зрения. Исследование показывает, что структурные изменения в аграрном секторе и регулирующая политика государства играют ключевую роль в обеспечении устойчивости рынка. Анализ, проведенный автором, выявляет, что институциональные и структурные ограничения в агропродовольственном рынке Азербайджана сохраняются: слабое развитие аграрных кооперативов, неравномерное размещение перерабатывающей промышленности, неполная логистическая инфраструктура и проблемы целенаправленности государственных механизмов поддержки ограничивают эффективность. Сравнительный анализ международного опыта

показывает, что конкурентоспособность аграрных рынков развитых стран обеспечивается силой кооперативных моделей, инновационными технологиями переработки, цифровыми системами управления и институциональными основами государственно-частного партнерства. В статье отмечается, что для устойчивого развития агропродовольственного рынка Азербайджана необходимо интегрировать цепочку «производство–переработка–логистика», расширять процессы цифровизации, продвигать местные бренды и стимулировать экспортно-ориентированное производство. Кроме того, повышение знаний и навыков участников рынка, а также внедрение современных маркетинговых и торговых стратегий играют важную роль в повышении конкурентоспособности. Целевое и прозрачное осуществление субсидирования и инвестиционных стимулов государством повышает эффективность. Развитие региональных рынков требует стимулирования местного производства и совершенствования логистической инфраструктуры. Одновременно укрепление деятельности аграрных научно-исследовательских институтов и инновационных центров способствует передаче технологий и повышению производительности. В заключение подчеркивается, что модернизация агропродовольственного рынка является стратегическим направлением, обеспечивающим не только экономическую эффективность, но и социальное благосостояние, продовольственную безопасность и сбалансированное региональное развитие. Таким образом, комплексное и устойчивое развитие агропродовольственного рынка напрямую способствует росту как экономических, так и социальных показателей.

***Ключевые слова:*** *Агропродовольственный рынок, продовольственная безопасность, сельское хозяйство, государственная политика, социально-экономическое развитие, логистика и переработка, международный опыт, кооперативная модель, конкурентоспособность, инновационные механизмы.*

## GİRİŞ

Aqrar-ərzaq bazarının sabit və dayanıqlı inkişafı ölkənin iqtisadi artımının və ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas amillərindən biridir. Kənd təsərrüfatının mövcud potensialından səmərəli istifadə, yerli ərzaq məhsullarının istehsal həcminin artırılması, əhalinin ərzaqla təminatının yaxşılaşdırılması və sosial rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə istehsal və istehlak arasında optimal balansın qorunması, xüsusilə aqrar sahədə iqtisadi sabitlik və ərzaq ehtiyatlarının düzgün idarə olunması baxımından vacibdir. Yerli kənd təsərrüfatı istehsalçılarının zəifləməsi fonunda aqrar-ərzaq bazarının inkişafı daha da aktuallaşır.
Azərbaycanın keçid dövründə yaşadığı siyasi və təşkilati-iqtisadi dəyişikliklər nəticəsində kənd təsərrüfatı istehsalında ciddi geriləmə müşahidə olunmuş, ərzaq məhsullarının idxalından asılılıq artmışdır. Bu, həm də əhalinin ərzaq məhsullarına çıxış imkanlarının azalmasına və qida rasionunun keyfiyyətinin pisləşməsinə səbəb olmuşdur. Xüsusilə zülal çatışmazlığı və digər qidalanma problemləri sosial narahatlıqlar yaratmışdır.
N.C. Qafarovun (2023) fikrincə, aqrar sahənin kifayət qədər iqtisadi potensiala malik olmasına baxmayaraq, onun inkişaf səviyyəsi və müasir təsərrüfatçılıq prinsiplərinə uyğunluğu hələ də qənaətbəxşdir. Müəllifin araşdırmalarına əsasən, bu geriləmənin əsas səbəblərindən biri kreditləşmə və maliyyələşmə mexanizmlərinin yetərincə səmərəli qurulmamasıdır. Xüsusilə kommersiya banklarının kreditləşmədə stimullaşdırıcı rolunun zəifliyi sahənin dayanıqlı inkişafına mane olur.
Bu kontekstdə ərzaq təhlükəsizliyinin zəifləməsinə təsir göstərən digər mühüm amillər də mövcuddur: ərzaq idxalının artması, kənd təsərrüfatında məhsuldarlığın azalması, texniki vasitələrin köhnəlməsi, sənaye potensialının zəifləməsi və keçmiş ittifaq ölkələri ilə iqtisadi əlaqələrin pozulması. Bütün bu amillər aqrar islahatların zəruriliyini gündəmə gətirmiş və yeni mülkiyyət formalarının tətbiqini sürətləndirmişdir. Lakin yeni iqtisadi münasibətlərin qurulması ilə yanaşı, aqrar sahədə bir sıra yeni problemlər də meydana çıxmışdır. Bu da aqrar-ərzaq bazarının bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə formalaşdırılmasını və inkişaf etdirilməsini zəruri etmişdir.
Azərbaycanın beynəlxalq bazara inteqrasiyası və təsərrüfat mexanizminin sürətlə dəyişməsi nəticəsində kənd təsərrüfatı və ərzaq bazarında müəyyən deformasiyalar baş vermişdir. Dövlət qarşısında ikiqat məsuliyyət yaranmışdır: bir tərəfdən, əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək, digər tərəfdən isə yerli istehsalçıların iqtisadi dayanıqlığını təmin etmək. Bu şəraitdə aqrar sahənin inkişafını təmin edən milli prioritetlərin müəyyən olunması və həyata keçirilməsi zəruri olmuşdur. Hazırda ölkənin ərzaq müstəqilliyini təmin etmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsal və satış məsələlərinə kompleks yanaşma tələb olunur. Bu isə aqrar-ərzaq bazarının formalaşdırılması və inkişafı üçün daha səmərəli və müasir mexanizmlərin hazırlanmasını zəruri edir.

### Aqrar-ərzaq bazarının inkişaf problemləri

Aqrar-ərzaq bazarının dayanıqlı və balanslı inkişafı, ölkənin ərzaq təhlükəsizliyi, regionların sosial-iqtisadi sabitliyi və kənd yerlərində məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin mövcud statistik məlumatlar və ümumi iqtisadi tendensiyalar bu bazarın inkişafında müəyyən struktur və institusional problemlərin hələ də aktual olduğunu göstərir. Bu problemlərin daha aydın təsviri və beynəlxalq təcrübə ilə müqayisəli təhlili aşağıdakı cədvəldə təqdim olunmuşdur:

**Cədvəl 1**
Aqrar-ərzaq bazarının inkişafına təsir edən əsas amillər

| № | Təsir edən amil | Azərbaycanda vəziyyət | Beynəlxalq təcrübə (ABŞ, Aİ, Çin və s.) |
|---|---|---|---|
| 1 | Aqrar kooperativlərin rolu | Kooperativlər zəif inkişaf edib, dövlət təşəbbüsləri başlanılıb | Kooperativlər güclü və bazar strukturunun əsas hissəsini təşkil edir |

| | | | |
|---|---|---|---|
| 2 | Emal sənayesinin vəziyyəti | Zəif inkişaf etmiş, bölgələr üzrə qeyri-bərabər yerləşmiş | Yüksək səviyyədə texnologiyalaşdırılmış, brend məhsullar istehsalı formalaşıb |
| 3 | Logistika və paylama | Soyuducu zəncir və logistik mərkəzlər kifayət deyil | Tam inkişaf etmiş infrastruktur, məhsulun izləniləbilərliyi təmin olunub |
| 4 | Dövlət dəstəyi | Subsidiyalar və güzəştli kreditlər verilir, lakin ünvanlılıq problemi var | Dövlət dəstəyi sistemli və rəqabəti təşviqedici mexanizmlərlə həyata keçirilir |
| 5 | İdxaldan asılılıq | Ərzaq məhsullarında yüksək asılılıq mövcuddur | Yerli istehsal və ixrac yönümlü struktur üstünlük təşkil edir |
| 6 | Rəqəmsallaşma səviyyəsi | Elektron kənd təsərrüfatı portalı fəaliyyət göstərir, tətbiq məhduddur | Rəqəmsal fermalar, süni intellekt əsaslı idarəetmə tətbiq olunur |
| 7 | İstehsalçıların bazara çıxışı | Kiçik fermerlər üçün çətinliklər mövcuddur | Kooperativ sistemlər vasitəsilə kollektiv bazar çıxışı təmin edilir |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, Azərbaycanın aqrar-ərzaq bazarı bir sıra fundamental problemlərlə üzləşməkdədir. Əsas çətinliklərə aqrar kooperativlərin zəif inkişafı, emal sənayesinin texnoloji geriliyi, logistik infrastrukturun qeyri-kafiliyi və dövlət dəstəyi mexanizmlərinin ünvanlılıq problemləri daxildir. Beynəlxalq təcrübə isə göstərir ki, bu sahələrin sistemli və koordinasiyalı inkişafı bazarların rəqabətqabiliyyətini və dayanıqlılığını əhəmiyyətli dərəcədə artırır.

Məsələn, 1990-cı illərlə müqayisədə kənd təsərrüfatı sahəsində məşğul əhalinin sayı nisbətən artsa da, bu artım əsasən əməyin məhsuldarlığının aşağı olması, əkinçilikdə texnoloji yeniliklərin gec tətbiqi və əmək bazarında qeyri-formal məşğulluğun geniş yayılması ilə müşahidə olunur. Əgər 1990-cı ildə kənd və meşə təsərrüfatında 1144,4 min nəfər məşğul idisə, 2023-cü ildə bu rəqəm 1777,4 min nəfərə çatmışdır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024). Artım, əsasən, kənd yerlərində alternativ məşğulluq imkanlarının məhdud olması ilə bağlıdır.

Bununla yanaşı, kənd təsərrüfatında məhsuldarlığın aşağı olması və müasir aqrotexniki vasitələrdən istifadə səviyyəsinin zəifliyi bazarın səmərəli işləməsinə maneə yaradır. Statistikaya əsasən, kənd təsərrüfatı sektoru məşğulluğun təxminən 36%-ni təşkil etsə də, bu sektorun ÜDM-də payı çox aşağıdır ki, bu da sektorun az məhsuldar və aşağı gəlirli olduğunu göstərir (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024).

Aqrar emal sənayesinə gəldikdə, bu sahədə 1999-cu ildən bu yana artım müşahidə olunsa da, inkişaf tempi digər sahələrlə müqayisədə ləngdir. Emal sənayesində məşğul əhalinin sayı 1999-cu ildə 184,5 min nəfərdən 2023-cü ildə 285 min nəfərə yüksəlib. Bu artım emal güclərinin yenilənməsi, kooperativlərin inkişafı, eləcə də yerli brendlərin təşviqi sahəsində görülən tədbirlərin hələ yetərli olmadığını göstərir.

Aqrar-ərzaq bazarının digər əsas problemi paylama və logistika infrastrukturlarının zəif inkişafı, bazar informasiya sistemlərinin qeyri-səmərəliliyi, rəqabətin məhdudluğu və xarici bazarlardan asılılıqdır. Bu amillər kənd təsərrüfatı məhsullarının vaxtında və itkisiz satışa çıxarılmasına mane olur, xüsusilə kiçik fermerlərin bazarlara çıxışını çətinləşdirir.

Dövlətin müdaxiləsi və dəstəyi əhəmiyyətli rol oynasa da, bu dəstəyin ünvanlı və səmərəli olması hələ də əsas çağırışlardan biridir. Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, aqrar sahənin uğurlu inkişafı üçün kooperasiya modellərinin geniş tətbiqi, əlverişli vergi və subsidiya mexanizmləri, aqro-sığorta sistemlərinin gücləndirilməsi, kənddə infrastruktur layihələrinin genişləndirilməsi mütləqdir OECD (2021).

## Aqrar-ərzaq bazarının inkişafında dövlət siyasəti və tənzimləmə mexanizmləri

Aqrar-ərzaq bazarının inkişafında dövlət siyasəti və tənzimləmə mexanizmləri həm iqtisadi, həm də sosial aspektlərdən xüsusi əhəmiyyət daşıyır. Dövlət tərəfindən aqrar sahəyə yönəlik həyata keçirilən məqsədyönlü tədbirlər bazarın sabitliyinin təmin olunmasına, yerli istehsalçıların müdafiəsinə və ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edir. Son illərdə qəbul edilən strateji sənədlər, xüsusilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir (Azərbaycan Respublikası Prezidenti 2021)

Azərbaycanın təbii resurs potensialı, müxtəlif iqlim qurşaqlarında yerləşən torpaqları və zəhmətkeş kənd əhalisi aqrar-ərzaq sektorunun inkişafı üçün əlverişli zəmin yaratsa da, bu imkanlardan tam istifadə olunması üçün səmərəli tənzimləmə mexanizmlərinə ehtiyac var. Məhz bu səbəbdən dövlətin bu sahədə aktiv siyasət yürütməsi və normativ-hüquqi çərçivənin daim təkmilləşdirilməsi zəruridir. Aqrar sahənin institusional problemləri - qeyri-formal məşğulluq, informasiyaya çıxışın məhdudluğu, kredit və sığorta bazarının zəifliyi - dövlətin birbaşa müdaxiləsini tələb edən mühüm sahələrdəndir.

Dövlət tərəfindən həyata keçirilən tənzimləmə və dəstək mexanizmləri bir neçə əsas istiqaməti əhatə edir. Əvvəla, yerli istehsalın təşviqi məqsədilə fermerlərə subsidiyaların verilməsi və güzəştli kreditlərə çıxış imkanlarının genişləndirilməsi iqtisadi dayanıqlığın artırılmasına yönəlib. Eyni zamanda, aqroparkların yaradılması və müasir texnologiyaların tətbiqi, istehsal zəncirinin hər bir mərhələsində səmərəliliyi yüksəltməyə xidmət edir. Logistika və paylama infrastrukturunun təkmilləşdirilməsi, bazarlara çıxış imkanlarının genişləndirilməsi və ixrac qabiliyyətinin artırılması isə təkcə daxili bazarın deyil, həm də xarici bazarların fəth edilməsini nəzərdə tutur.

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində kooperativ təsərrüfatların formalaşdırılması, yerli istehsalçıların birləşdirilməsi və emal müəssisələri ilə inteqrasiyası məhsulun maya dəyərinin azaldılmasına və rəqabət qabiliyyətinin artırılmasına imkan yaradır. Eyni zamanda, ərzaq ehtiyatlarının idarə olunması, strateji məhsullar üzrə ehtiyat fondlarının formalaşdırılması və qiymət sabitliyinin qorunması məqsədilə tənzimləyici müdaxilələr həyata keçirilir.

Ərzaq təhlükəsizliyinin təmin olunması dövlətin əsas vəzifələrindən biri kimi qəbul edilir. Bu kontekstdə, daxili bazarın keyfiyyətli və təhlükəsiz ərzaqla təmin olunması, idxaldan asılılığın azaldılması və yerli məhsulların rəqabətə davamlı səviyyəyə çatdırılması hədəflənmişdir. Əhalinin qidalanma səviyyəsinin yüksəldilməsi, xüsusilə aztəminatlı təbəqələrin ərzaq məhsullarına çıxış imkanlarının yaxşılaşdırılması sosial siyasətin mühüm istiqamətlərindəndir. Beləliklə, aqrar-ərzaq bazarının inkişafı yalnız iqtisadi deyil, həm də sosial təhlükəsizliyin təminatçısı rolunu oynayır.

Azərbaycan Respublikası Prezidentinin (2008) sərəncamı ilə təsdiqlənmiş "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda qeyd olunur ki, ərzaq təhlükəsizliyi ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtlərindən biridir. Proqramda əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına təmin olunmasının vacibliyi, kənd təsərrüfatında məhsuldarlığın artırılması, aqrar sahənin texniki və infrastruktur təminatı, ərzaq ehtiyatlarının formalaşdırılması və idxaldan asılılığın azaldılması əsas istiqamətlər kimi müəyyən edilmişdir .

Aqrar sahədə tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə qabaqcıl ölkələrin aqro-sığorta sistemləri, kənd təsərrüfatının rəqəmsallaşdırılması, ekoloji uyğun istehsal texnologiyalarının tətbiqi və yaşıl inkişaf modellərinin araşdırılması yerli şəraitə uyğunlaşdırılmalıdır. Belə yanaşma aqrar sahənin dayanıqlılığını artırmaqla yanaşı, ətraf mühitə təsirin azaldılmasına da töhfə verir. Bundan əlavə, kənd yerlərində infrastrukturun inkişafı - xüsusilə yol, suvarma və enerji təchizatı sistemlərinin təkmilləşdirilməsi - kənd təsərrüfatı istehsalının səmərəliliyini və dayanıqlığını gücləndirən əsas amillərdən biridir.

Nəticə etibarilə, aqrar-ərzaq bazarının inkişafı dövlət siyasəti və tənzimləmə mexanizmlərinin kompleks, çoxşaxəli yanaşmasını tələb edir. Bu yanaşma iqtisadi stimullaşdırmanı, sosial müdafiəni və institusional islahatları birləşdirməli, həmçinin mövcud siyasətin davamlı və adaptiv şəkildə təkmilləşdirilməsini təmin etməlidir. Tənzimləmə mexanizmlərinin çevik və nəticəyönlü olması aqrar-ərzaq bazarının sabit və dayanıqlı inkişafına zəmin yaradacaqdır. Belə dayanıqlı inkişaf isə ölkənin ərzaq təhlükəsizliyini möhkəmləndirmək, sosial rifahı artırmaq və regional balanslı inkişafa nail olmaq baxımından fundamental əhəmiyyət kəsb edir.

***Beynəlxalq təcrübə və Azərbaycanın mövqeyi***

Dünya üzrə aqrar-ərzaq bazarının formalaşması və inkişafı müxtəlif regionların iqtisadi səviyyəsi, resurs imkanları, dövlətin aqrar siyasəti və qlobal ticarət şərtlərindən birbaşa asılıdır. İnkişaf etmiş ölkələrdə aqrar-ərzaq bazarı yüksək səviyyədə təşkil olunmuş, kənd təsərrüfatı məhsullarının emalı, saxlanması, qablaşdırılması və dünya bazarlarına çıxışı üzrə kompleks logistika və innovasiya zənciri qurulmuşdur. Avropa İttifaqı ölkələri, ABŞ, Kanada və Avstraliya kimi ölkələrdə aqrar sahəyə dövlət dəstəyi, subsidiyalar və investisiya təşviqləri nəticəsində rəqabətqabiliyyətli və ixrac yönümlü ərzaq bazarı formalaşdırılmışdır *FAO (2022).*

Qlobal təcrübə göstərir ki, aqrar-ərzaq bazarının səmərəli işləməsi üçün yalnız ilkin kənd təsərrüfatı istehsalı kifayət etmir. Əksinə, əsas dəyər emal mərhələsində, logistika və satış sistemində formalaşır. Bu səbəbdən ABŞ, Çin, Braziliya, Almaniya və digər iri ərzaq istehsalçıları ərzaq sənayesində məhsulun “tarladan süfrəyə” qədər olan yolunu tam nəzarətdə saxlayaraq böyük bazar payına malik olurlar. Çin əsasən daxili bazara yönəlik istehsal strukturuna malik olsa da, ABŞ ixrac yönümlü istehsal və emal strategiyası ilə xüsusilə quş əti və süd məhsulları bazarında liderdir.

Pandemiya dövründə qlobal aqrar-ərzaq bazarında yaşanan tənəzzül, tədarük zəncirlərinin pozulması və qiymət artımları ərzaq təhlükəsizliyinin milli prioritet olduğunu bir daha sübut etdi. Bu şəraitdə bir çox ölkə, o cümlədən inkişaf etməkdə olan dövlətlər ərzaq məhsullarının yerli istehsal və emal imkanlarını gücləndirməyə üstünlük verdilər.

Azərbaycanda tez-tez Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC-nin təşkilatçılığı ilə paytaxtda “Kənddən Şəhərə” adlı həftəsonu yarmarkalarının keçirilməsinə baxmayaraq, bu təşəbbüslərin iqtisadi səmərəliliyi məhdud olaraq qalır. Bu tədbirlər əsasən pərakəndə satışa xidmət edir və yalnız dövlət strukturu tərəfindən idarə olunduğuna görə, bazarda rəqabətli mühitin formalaşmasına və istehsalçıların təşəbbüskarlığının təşviqinə kifayət qədər imkan yaratmır. Faktiki olaraq bu model, ərzaq bazarında dövlətin birbaşa iştirakçısı kimi çıxış etməsi səbəbindən müəyyən inhisar əlamətləri daşıyır və uzunmüddətli dayanıqlı inkişaf mexanizmi hesab oluna bilməz.

Halbuki beynəlxalq təcrübə göstərir ki, aqrar-ərzaq bazarının səmərəli və dayanıqlı inkişafı əsasən istehsalçıların birgə fəaliyyətinə, kooperativlərin gücləndirilməsinə və özəl sektorun təşviqinə əsaslanır. Məsələn, Avropa İttifaqında kənd təsərrüfatı kooperativləri istehsalın emal, qablaşdırma, nəqliyyat və ixrac mərhələlərində birgə iştirak etməklə yalnız məhsulun satış dəyərini artırmır, həm də bazarda qiymət sabitliyinin qorunmasına və rəqabətli münasibətlərin inkişafına xidmət edir. Niderland, Danimarka və Almaniyada bu modellər vasitəsilə fermerlər birləşərək bazarda kollektiv güc kimi çıxış edir, beləliklə həm daxili, həm də xarici bazarda daha əlverişli mövqe əldə edirlər.

Azərbaycan da bu istiqamətdə beynəlxalq təcrübəni nəzərə alaraq aqrar-ərzaq sektorunda ardıcıl islahatlara başlamışdır. Dövlət tərəfindən subsidiyaların verilməsi, aqrar sığorta sisteminin tətbiqi, e-kənd təsərrüfatı portalının yaradılması və logistika infrastrukturunun inkişafı ölkədə rəqabətqabiliyyətli ərzaq bazarının formalaşmasına zəmin yaradır. Lakin bu prosesin nəticələrinin daha səmərəli olması üçün, mövcud təşəbbüslər özəl sektorun və istehsalçı birliklərinin fəal iştirakı ilə gücləndirilməlidir. Emal müəssisələrinin paytaxt və regionlarda qeyri-bərabər yerləşməsi, logistik imkanların məhdudluğu və ixrac yönümlü məhsulların standartlaşdırılmaması kimi problemlər yerli ərzaq məhsullarının

bazarda rəqabət qabiliyyətini azaldır və aqrar-ərzaq bazarının strukturlaşdırılmış, dayanıqlı modelə keçidini ləngidir.

Hazırda Azərbaycan üçün strateji məsələ kənd təsərrüfatı məhsullarının emalı bazasının gücləndirilməsi, ərzaq məhsullarının ixrac potensialının artırılması və yerli brendlərin beynəlxalq bazarlara çıxışıdır. Bu baxımdan Avropa ölkələrinin aqrar kooperativ təcrübəsi, brend məhsulların qorunması (PDO, PGI, TSG sertifikatları) və orqanik bazar yönümlü istehsal modeli Azərbaycan üçün nümunə ola bilər. Aqrar-ərzaq bazarının inkişafında digər vacib amil isə daxili bazarın tənzimlənməsi və qiymət sabitliyinin qorunmasıdır. Emal müəssisələrinin modernləşdirilməsi, kənd təsərrüfatı məhsullarının logistik mərkəzlərdə toplanması və çevik satış sistemlərinin qurulması Azərbaycanın ərzaq bazarında sabitliyi təmin edə bilər. Bundan əlavə, son illərdə qlobal aqrar bazarlarda rəqəmsal transformasiyanın rolu artmış, süni intellekt, blokçeyn texnologiyaları və IoT (internet of things) kənd təsərrüfatının idarə edilməsində səmərəliliyi artırmışdır. Azərbaycan da bu tendensiyalara uyğunlaşaraq rəqəmsal kənd təsərrüfatı tətbiqlərini genişləndirməlidir.

**Aqrar-ərzaq bazarının perspektiv inkişaf istiqamətləri**

Azərbaycanın aqrar-ərzaq bazarının perspektiv inkişaf istiqamətləri ölkənin strateji ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatının modernləşdirilməsi və milli iqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qlobal ərzaq tədarükündə yaşanan qeyri-müəyyənliklər, iqlim dəyişikliyi, urbanizasiya və geosiyasi çağırışlar fonunda daxili istehsal potensialının gücləndirilməsi və bazar strukturunun dərinləşdirilməsi prioritet məsələlərdən biridir.

Gələcək inkişaf baxımından əsas istiqamətlərdən biri istehsal strukturunun şaxələndirilməsi və yüksək əlavə dəyər yaradan məhsullara keçidin sürətləndirilməsidir. Bu yanaşma kənd təsərrüfatı məhsullarının yalnız ilkin mərhələdə deyil, eyni zamanda emal və qablaşdırma sahələrində də bazar dəyərinin artırılmasına yönəlib. Rəqabət qabiliyyətli məhsul istehsalı üçün aqrotexniki innovasiyaların tətbiqi, müasir suvarma sistemləri və məhsuldar toxum sortlarının istifadəsi genişləndirilməlidir. Xüsusilə iqlim dəyişikliklərinə qarşı davamlı texnologiyaların tətbiqi uzunmüddətli dayanıqlığın təmin edilməsi baxımından vacib hesab olunur.

Digər bir önəmli istiqamət isə aqrar sahədə rəqəmsallaşma proseslərinin sürətləndirilməsidir. Aqroinformatika, süni intellektə əsaslanan proqnozlaşdırma modelləri, smart ferma texnologiyaları və kənd təsərrüfatında iri verilənlərin (big data) istifadəsi vasitəsilə bazar tendensiyalarının real vaxt rejimində izlənilməsi mümkün olacaq. Bu isə təkcə məhsul istehsalının deyil, həm də satış və ehtiyat planlaşdırmasının daha səmərəli aparılmasına şərait yaradacaq.

Aqrar-ərzaq bazarının inkişafı eyni zamanda logistika və infrastruktur sahələrində modern yanaşmaların tətbiqini zəruri edir. Daşınma və saxlama imkanlarının yaxşılaşdırılması, məhsulun keyfiyyətini qoruyan soyuq zəncirlərin qurulması, bölgələr üzrə logistik mərkəzlərin yaradılması daxili bazarın daha sabit və səmərəli işləməsinə xidmət edəcək. Bu infrastrukturun formalaşdırılması eyni zamanda ixrac potensialının reallaşdırılmasına da təkan verəcək.

İxrac yönümlü kənd təsərrüfatı siyasətinin təşviqi və dünya bazarlarında rəqabətə davamlı məhsul brendlərinin formalaşdırılması ölkənin valyuta gəlirlərini artırmaqla yanaşı, aqrar sahənin ümumi iqtisadiyyatda çəkisini də artıracaq. Burada beynəlxalq standartlara uyğunluq, sertifikatlaşdırma və izləniləbilərlik sistemlərinin (traceability) tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Sosial aspektdən isə aqrar-ərzaq bazarının inkişafı kənd yerlərində məşğulluğun və həyat səviyyəsinin yüksəldilməsi üçün geniş imkanlar yaradır. Kənd əmək resurslarının səmərəli şəkildə cəlb edilməsi, aqrar təhsil və bilik sisteminin gücləndirilməsi, gənc fermerlərə dəstək mexanizmlərinin genişləndirilməsi sahənin dayanıqlığını təmin edən əsas amillərdəndir.

Nəhayət, dövlətin dəstək siyasəti gələcəkdə də aqrar-ərzaq bazarının formalaşdırıcı qüvvələrindən biri olaraq qalmalıdır. Subsidiyaların optimallaşdırılması, kənd təsərrüfatı sığortasının genişləndirilməsi,

kooperativlərin inkişafı və dövlət-özəl tərəfdaşlığının stimullaşdırılması vasitəsilə bazar iştirakçılarının aktivliyi və investisiya cəlbediciliyi artırıla bilər.

Ümumilikdə, aqrar-ərzaq bazarının perspektiv inkişafı kompleks və mərhələli yanaşma tələb edir. Elmi əsaslandırılmış siyasət, texnoloji innovasiya, bazar yönümlü istehsal və səmərəli idarəetmə mexanizmlərinin vəhdəti sayəsində Azərbaycan həm daxili tələbatını ödəyə, həm də regional ərzaq bazarlarında strateji oyunçuya çevrilə bilər. Eyni zamanda, aqrar təhsil və innovasiya mərkəzlərinin yaradılması, yerli fermerlər üçün davamlı təlim proqramlarının təşkil olunması, eləcə də startapların dəstəklənməsi sahənin innovativ inkişafını sürətləndirə bilər.

## NƏTİCƏ

Araşdırma nəticəsində məlum oldu ki, aqrar-ərzaq bazarının səmərəli təşkili və idarə olunması sosial-iqtisadi inkişafın mühüm dayaqlarından biridir. Tədqiqat göstərdi ki, Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsal və bazara çıxarılması zəncirində struktur problemlər, qeyri-səmərəli logistik infrastruktur, zəif kooperativləşmə və rəqəmsallaşma sahəsində geri qalma bazar mexanizmlərinin tam formalaşmasına əngəl yaradır. Dövlət tərəfindən həyata keçirilən subsidiyalar, investisiya təşviqləri və institusional islahatlar pozitiv dinamika yaratsa da, mövcud çağırışlar dayanıqlı inkişaf üçün yeni və innovativ yanaşmalar tələb edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, məqalədə aqrar-ərzaq bazarının inkişafı yalnız iqtisadi müstəvidə deyil, həm də sosial və institusional baxımdan kompleks yanaşma ilə təhlil olunmuşdur. Eyni zamanda, beynəlxalq təcrübə ilə müqayisəli analiz aparılaraq yerli mühit üçün uyğunlaşdırıla biləcək model və mexanizmlər müəyyən edilmişdir.

**Tətbiqi əhəmiyyətinə** görə, təqdim edilən tövsiyələr aqrar sahədə fəaliyyət göstərən dövlət qurumları, kənd təsərrüfatı istehsalçıları, emal müəssisələri və ixracatçılar üçün praktiki əhəmiyyət daşıyır. Xüsusilə, aqrokooperativlərin inkişafı, məhsul izlenilebilirliyi sistemlərinin tətbiqi, regional logistika mərkəzlərinin yaradılması və rəqəmsal bazar platformalarının qurulması real nəticə doğura biləcək istiqamətlərdir.

**İqtisadi səmərə baxımından**, bu mexanizmlərin tətbiqi kənd təsərrüfatı məhsullarının itkisinin azalması, daxili bazarda təklifin sabitləşməsi, ixrac potensialının genişlənməsi və regionlarda məşğulluğun artması ilə nəticələnə bilər. Bu isə, öz növbəsində, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və sosial rifahın artırılması üçün baza rolunu oynayacaqdır.

**Tövsiyə olunur** ki, aqrar-ərzaq bazarının inkişafı məqsədilə aşağıdakı məsələlər öz həllini tapsın:

- Kooperativləşməyə dövlət dəstəyi gücləndirilsin və vergi stimulları tətbiq edilsin;
- Emal sənayesinə yönələn investisiyalar üçün güzəştli mexanizmlər genişləndirilsin;
- Aqrar məhsullar üzrə rəqəmsal satış platformaları və mobil ticarət sistemləri inkişaf etdirilsin;
- Tədarük zənciri üzrə sertifikatlaşdırma və keyfiyyət izlənilməsi sistemləri tətbiq olunsun;
- Regional logistika infrastrukturunun genişləndirilməsi üçün dövlət-özəl tərəfdaşlığı modelləri tətbiq edilsin;
- Dövlətin vergi və kredit güzəştləri ilə yanaşı, aqrar sahədə qadınların və gənclərin aktiv iştirakını təmin etmək üçün xüsusi proqramların hazırlanması da sektorun sosial dinamizmini artıracaqdır.

Nəticə etibarilə, aqrar-ərzaq bazarının inkişafı təkcə kənd təsərrüfatının deyil, bütövlükdə milli iqtisadiyyatın diversifikasiyası və dayanıqlı inkişafı üçün strateji əhəmiyyət daşıyır. Gələcəkdə aqrar-ərzaq bazarının inkişafı sahəsində beynəlxalq əməkdaşlıqların gücləndirilməsi, texnoloji bilik və təcrübə mübadiləsinin artırılması Azərbaycan üçün strateji üstünlük yaradacaqdır.

### Yekun nəticə

Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, aqrar-ərzaq bazarının səmərəli təşkili və inkişafı yalnız iqtisadi tədbirlərlə deyil, kompleks və sistemli yanaşmalarla mümkündür. Müasir çağırışlar fonunda bu sahənin rəqəmsallaşdırılması, kooperasiya mexanizmlərinin gücləndirilməsi, logistik infrastrukturun

 ISSN 2413-7235

modernləşdirilməsi və hüquqi-normativ bazanın təkmilləşdirilməsi prioritet istiqamətlər kimi çıxış edir.

Məqalədə aparılan elmi təhlillər və təqdim edilən təkliflər Azərbaycan üçün spesifik olan sosial-iqtisadi reallıqlar nəzərə alınmaqla hazırlanmışdır. Bu yanaşma, aqrar sahənin dayanıqlı inkişafına, ərzaq təhlükəsizliyinin təmininə və regionlarda iqtisadi fəallığın artırılmasına mühüm töhfə verə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. *Azərbaycan Respublikası Prezidenti. (2008, 25 avqust).* "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam № 3004. *Bakı: Azərbaycan Respublikası Prezidentinin Rəsmi veb saytı.* https://e-qanun.az/framework/15320
2. *Azərbaycan Respublikası Prezidenti. (2021, 2 fevral).* "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Sərəncam. *Bakı: Azərbaycan Respublikası Prezidentinin Rəsmi veb saytı.* https://president.az
3. *Qafarov, N. C. (2023).* Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri. *Bakı: Kooperasiya Nəşriyyatı.*
4. *FAO. (2022).* The State of Food and Agriculture 2022: Leveraging automation in agriculture for transforming agrifood systems. *Rome: Food and Agriculture Organization of the United Nations.* https://www.fao.org/publications
5. *OECD. (2021).* Agricultural Policy Monitoring and Evaluation 2021: Addressing the Challenges Facing Food Systems. *Paris: OECD Publishing. https://doi.org/10.1787/2d810e01-en*
6. *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (2023).* Aqrar sahədə dövlət dəstəyi mexanizmləri haqqında illik hesabat. *Bakı: KTN.*
7. *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (AR DSK). (2024).* Azərbaycan Respublikasında kənd təsərrüfatı: Statistika məcmuəsi. *Bakı: AR DSK.* https://stat.gov.az